BAKI ALİ NEFT MƏKTƏBİ
BAKU HIGHER OIL SCHOOL

# 2-ci kursa bir başa keçid üçün qaydalar

2-ci kursa birbaşa keçid etmək istəyən tələbələrin İngilis dili və İKT bilikləri lazımi səviyyədə olmalıdır.

## İngilis dili

2-ci kursa birbaşa keçid etmək istəyən tələbələr İngilis dili səviyyəsinin ölçülməsi məqsədilə cədvəldə göstərilən sertifikatları (İELTS, TOEFL) təqdim etməli yaxud İB beynəlxalq proqramından məzun olmalıdır. . Sertifikatları təqdim etdikləri halda İngilis dili fənnindən müvəffəq nəticə almış hesab edilir və nəticəsinə uyğun olaraq tələbə qeydiyyat sisteminə qiyməti yazılır.

| IELTS | TOEFL-IBT | CEFR | Cambridge first scores FCE / CAE / CPE | IB və digər beynəlxalq proqramdan məzun olanlar | BANM nəticəsi | Nəticə |
|---|---|---|---|---|---|---|
| 6 | 65-75 | B2 | 170 | 25 və ya müvəffəqiyyət imtahanı əsasında | 71 | C |
| 6.5 | 76-85 | B2 | 180 | 26 və ya müvəffəqiyyət imtahanı əsasında | 79 | C |
| 7 | 86-93 | C1 | 190 | 27 və ya müvəffəqiyyət imtahanı əsasında | 87 | B |
| 7.5 | 94-102 | C1 | 200 | 28-29 və ya müvəffəqiyyət imtahanı əsasında | 92 | A |
| 8 | 103-111 | C1 | 210 | 30-31 və ya müvəffəqiyyət imtahanı əsasında | 95 | A |
| 8.5 | 112-116 | C2 | 220 | 32-33 və ya müvəffəqiyyət imtahanı əsasında | 98 | A |
| 9 | 117-120 | C2 | 230 | 34-35 və ya müvəffəqiyyət imtahanı əsasında | 100 | A |

**Qeyd**: İELTS sektifikatı təqdim edildiyi halda ümumi bal minimum 6.0 olmaqla savayı ,spesifik bölmələr üzrə nəticə 5.5 baldan aşağı olmamalıdır.

1) Neft-qaz mühəndisliyi, Kimya mühəndisliyi, Biznesin idarə edilməsi tələbələri ixtisas fənləri ilə yanaşı "İKT 1" və "İKT 2" fənlərini də dövlət sifarişi əsasında qəbul olunanlar ödənişsiz, ödənişli əsaslarla qəbul olunanlar isə kreditə uyğun ödəniş edərək dinləmələrinə, qış və yay imtahan sessiyalarında imtahanlarda iştirak edərək mövcud qaydalar çərçivəsində lazımi kreditlərin qazanılmasına müvafiq qaydada şərait yaradılır.

Əlavə olaraq "CompTIA IT Fundamentals" və ya "IT Essentials" (CISCO Networking Academy) kurslarını uğurla bitirərək beynəlxalq sertifikatı qazanan tələbələr "İKT-nin mühəndislikdə tətbiqi 1", "Programming Essentials in Python (CISCO Networking Academy)" kursunu uğurla bitirərək beynəlxalq sertifikatı qazanan tələbələr isə "İKTnin mühəndislikdə tətbiqi 2" fənni üzrə dərslərdən və semestr imtahanlarından azad edilirlər. Uyğun sertifikatı təqdim edən tələbənin imtahan balı 100 (A) olaraq dəyərləndirilir.

2) Proseslərin avtomatlaşdırılması mühəndisliyi, İnformasiya təhlükəsizliyi, Komputer mühəndisliyi ixtisasları üzrə qəbul tələbələr "CompTIA IT Fundamentals" və ya "IT Essentials" (CISCO Networking Academy) kurslarını uğurla bitirərək beynəlxalq sertifikatı qazanan tələbələr "İKT-nin mühəndislikdə tətbiqi 1", "Programming Essentials in Python (CISCO Networking Academy)" kursunu uğurla bitirərək beynəlxalq sertifikatı qazanan tələbələr isə "İKTnin

mühəndislikdə tətbiqi 2" fənni üzrə dərslərdən və semestr imtahanlarından azad edilirlər. Uyğun sertifikatı təqdim edən tələbənin imtahan balı 100 (A) olaraq dəyərləndirilir.

Yalnız IELTS sertifikatı təqdim edən tələbələr, bu ixtisasların xüsusiyyətləri nəzərə alınaraq birbaşa 2-ci kursa keçirilməyərək yalnız "İKT 1" və (və ya) "İKT 2" fənlərini (fənnini) dövlət sifarişi əsasında qəbul olunanlar ödənişsiz, ödənişli əsaslarla qəbul olunanlar isə kreditə uyğun ödəniş edərək dinləmələrinə icazə verilir.